**Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 8, I kitab, maddə 583; 2001, 7, maddə 454, 9, maddə 576, 12, maddə 734; 2002, 5, maddə 249, 12, maddə 707; 2003, 8, maddə 425, 12, I kitab, maddə 671; 2004, 1, maddə 1, 11, maddə 887, 12, maddə 980; 2005, 2, maddə 61, 8, maddə 688, 12, maddə 1081; 2006, 12, maddələr 1005, 1026; 2007, 1, maddə 4, 6, maddə 597, 8, maddə 745, 11, maddə 1053, 12, maddə 1192; 2008, 7, maddə 602, 11, maddə 960; 2009, 7, maddə 506; 2011, 1, maddə 14, 7, maddələr 588, 603, 12, maddə 1115; 2012, 6, maddələr 500, 513, 7, maddə 652, 9, maddə 841, 12, maddə 1226; 2013, 2, maddə 91, 4, maddə 366, 11, maddə 1278, 12, maddələr 1483, 1486, 1495; 2014, 2, maddələr 94, 98, 7, maddə 770, 8, maddə 957, 10, maddə 1158, 12, maddə 1525; 2015, 1, maddə 11, 12, maddə 1433; Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 102-VQD və 107-VQD nömrəli, 4 mart tarixli 136-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6.1.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"6.1.6. hüquqi şəxslərin və bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş halda fiziki şəxslərin torpaq vergisi;";

1.2. 8.1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"8.1.1. bu Məcəllənin 206.1-1-ci və 206.3-cü maddələrində nəzərdə tutulmuş hallarda fiziki şəxslərin torpaq vergisi;";

1.3. 159.10-cu maddədə "və 164.1.20-164.1.25-ci" sözləri ", 164.1.20-164.1.25-ci, 164.1.33-cü və 164.1.35-ci" sözləri ilə əvəz edilsin;

1.4. 164.1.28-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 164.1.29-164.1.35-ci maddələr əlavə edilsin:

"164.1.29. damazlıq heyvanların idxalı və satışı;

164.1.30. toxum və tinglərin idxalı və satışı;

164.1.31. mineral gübrələrin, pestisidlərin idxalı və satışı;

164.1.32. toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı;

164.1.33. kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı;

164.1.34. bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı;

164.1.35. siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan xammalın və materialların idxalı.";

1.5. 206.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"206.1. Bu Məcəllənin 206.1-1-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə 1 manat müəyyən edilir.";

1.6. aşağıdakı məzmunda 206.1-1-ci maddə əlavə edilsin:

"206.1-1. Müvafiq icra hakimiyyəti orqanının verdiyi arayışa əsasən, təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi 1 şərti bal üçün 0,06 manat müəyyən edilir. Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən qayda və meyarlar əsasında müəyyən edilir.";

1.7. 206.3-cü maddədə "206.1-ci maddəsində" sözləri "206.1-ci və 206.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.8. 208.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"208.6. Müəssisələrin və bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş halda fiziki şəxslərin torpaq vergisi dövlət büdcəsinə, digər hallarda fiziki şəxslərin torpaq vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.".

**Maddə 2.** Bu Qanunun 1.1-ci, 1.2-ci, 1.5-ci, 1.6-cı, 1.7-ci və 1.8-ci maddələri 2017-ci ilin 1 yanvar tarixindən qüvvəyə minir.

**Maddə 3.** Bu Qanunun 1.3-cü və 1.4-cü maddələri 2016-cı ilin 1 aprel tarixindən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 may 2016-cı il
227-VQD